BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Humanitar elmlər seriyası 2014*

UOT 94 (479. 24)

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANIN SAHİBKAR KƏNDİNDƏ KAPİTALİST MÜNASİBƏTLƏRİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**F.E.BAXŞƏLİYEV, F.S.İSMAYILOV**
***Bakı Dövlət Universiteti***
***baxsaliebfazil@yahoo.com***

*XX əsrin əvvəllərində Azərbaycan sahibkar kəndində əmtəə istehsalının əsas istiqamətlərindən biri bəy – mülkədar və digər sahibkar şəxslərin təsərrüfatlarının getdikcə daha burjua – kapitalist təsərrüfatları xarakteri daşıması, istehsal olunan müxtəlif kənd təsərrüfatı məhsullarının məcmusunda onların xüsusi çəkisinin artması idi. XX əsrin əvvəllərində Azərbaycan sahibkar kəndində istehsalın ən müxtəlif sahələrində əmtəə – kapitalist münasibətlərinin inkişafını sürətləndirən amillərdən biri də taxıl əkini sahələrinin əvvəlki illərdən fərqli olaraq daha intensiv becərilməsi, müasir texnika, o cümlədən dəmir kotanlar, taxıldöyən maşınlar və s.-nin istifadə olunması idi. Bu dövrdə sahibkar kəndində əmtəə-kapitalist istehsalının ən əsas yekunu bəzi sahələrdə əmtəə istehsalı prosesinin get-gedə daha çox sənaye xarakteri daşımağa başlaması diqqəti daha çox cəlb edirdi.*

**Açar sözlər:** kapitalist, inkişaf, kənd, şimal

Son onilliklərə qədər tarixşünaslıq ədəbiyyatlarında Azərbaycanda kənd təsərrüfatında kapitalist münasibətlərinin meydana gəlməsi vaxtı, inkişaf yolları və digər vacib məsələlərdən danışarkən müəyyən məqamlarda birmənalı nəticələrə gəlmək, konkret mühakimələr yürütmək çətin olurdu. XX əsrin ortalarına qədər Azərbaycan sovet tarixşünaslığında, demək olar ki, bütün tədqiqatlarda Azərbaycanda guya 1917-ci il oktyabr çevrilişinə qədər yarımfeodal və patriarxal münasibətlərin qalması haqqında konsepsiya hamılıqla qəbul olunurdu. Kapitalist münasibətlərinin yaranması və inkişafı məsələsi kölgədə qalır, bu məsələdən danışanda, neft sənayesini və Bakını çıxmaq şərtilə, qəzalarda kənd təsərrüfatında kapitalist münasibətlərinin yaranması, ən tezi XX əsrin əvvəllərinə aid edilirdi.

Lakin XX əsrin 1950-1960-cı illərindən başlayaraq Şimali Azərbaycanda aqrar münasibətlərin tədqiqinə həsr edilmiş müxtəlif səpkili əsərlərdə kənd təsərrüfatında kapitalist münasibətlərinin yaranması və inkişafının XIX əsrin

son onilliklərindən, xüsusilə kəndli islahatının həyata keçirilməsindən sonra başlandığını qəbul etməyə başladılar. Bu məsələ ilk növbədə muzdlu əməkdən istifadə edilməsi, torpağın icarə və alqı-satqı obyektinə çevrilməsi, yeni təsərrüfatçılıq metodlarının tətbiqi, iqtisadiyyatın bazarın tələbatına uyğunlaşması, əmtəə-pul münasibətlərinin genişlənməsi və s. məsələləri əhatə edirdi. Azərbaycan kənd təsərrüfatında aqrar münasibətlərin tədqiqini muzdlu əməyin, xüsusilə də mülkədar və bəy malikanə torpaqlarında tətbiqini araşdırmadan başa çatdırmaq, demək olar ki, mümkün deyil.

Şimali Azərbaycanda mülkədar malikanələrində və bütövlükdə sahibkar kəndində kapitalist münasibətlərinin yaranması və əmtəə istehsalının çoxalması və faktları tarixçilərdən Ə.S.Sumbatzadə, M.Ə.İsmayılov, T.T.Vəliyev, Ə.A.Umayev, Y.İ.Ələsgərov, H.N.Həsənov, Q.Ə.Əliyevin, gürcü tarixçilərindən S.L.Avaliani, P.V.Ququşvili, İ.İ.Uturaşvili və bir çoxlarının əsərlərində də verilmişdir.

Kəndli islahatının qəbulundan sonrakı ilk onilliklərdə çox ləng olsa da, yeni-kapitalist münasibətlərinin yaranması, sahibkar kəndində torpaq icarəsinin get-gedə çoxalması, muzdlu əməkdən istifadə, mülkədar, həm də kəndli torpaqlarının alqı-satqı obyektinə çevrilməsi, banklara girov qoyulmağa başlanması və digər hallar Şimali Azərbaycan sahibkar kəndi daxilində yeni keyfiyyət dəyişiklikləri yaratmalı idi. Bütün bunların içərisində diqqəti xüsusilə cəlb edən cəhətlərdən biri əmtəə-pul münasibətlərinin yaranması və daha da inkişaf etməsi idi (5, 167).

Əmtəə istehsalı Şimali Azərbaycan sahibkar kəndində kapitalist münasibətlərinin yaranmasından kifayət qədər hiss olunacaq dərəcədə əvvəl baş versə də (16, 132; 19, 150-151), bütövlükdə əmtəə-kapitalist münasibətlərinin yaranması və inkişaf templəri müxtəlif yerlərdə müəyyən fərqlərə malik olmuşdur. Bəhs olunan münasibətlərin yarandığı sahələr içərisində ilk növbədə ipəkçilik, sonra isə pambıqçılıq, taxılçılıq, maldarlıq və digər sahələr dayanırdı.

Qeyd etmək yerinə düşərdi ki, Cənubi Qafqaz dəmir yolunun Bakı hissəsi adlanan 515 verstlik Tiflis – Bakı dəmir yol xəttinin 1883-cü ildə istifadəyə verilməsi (2, 52; 8, 168-169) Şimali Azərbaycanın iqtisadiyyatının bütün sahələrində olduğu kimi kənd təsərrüfatının da əksər sahələri ilə məşğul olan sahibkar kəndində əmtəə istehsalının artmasına ciddi təkan vermiş oldu. Q.Ə.Əliyev bu məsələdən bəhs edərkən göstərmişdir ki, bu, Şimali Azərbaycanda XX əsrin əvvəllərində taxıl yığılmasının 0,7-1 milyon pud artmasında nəqliyyat sisteminin təkmilləşməsi, dəmir yolu ilə yükdaşımaların artması mühüm rol oynamışdı (7, 112).

XIX əsrin sonu - XX əsrin ilk illərində Şimali Azərbaycan sahibkar kəndində bəzi fərqlərə baxmayaraq kənd təsərrüfatının bütün əsas sahələrində-taxılçılıq, maldarlıq, üzümçülük, ipəkçilik və sairədə əmtəə-kapitalist münasibətlərinin inkişafı sürətini artırmaqda idi (12, 43). Cənubi Qafqfazda və eləcə də Şimali Azərbaycan kəndində əmtəə-kapitalist münasibətlərinin inkişafından bəhs edən V.Lenin yazırdı ki, ticarət əkinçiliyinin miqyası genişlənir və bu özünü ilk növbədə taxılçılıqda daha qabarıq göstərirdi (15, 631).

Bakı, Yelizavetpol və İrəvan quberniyalarının ayrı-ayrı qəzalarında XIX əsrin sonundan başlayaraq kapitalist münasibətlərinin maldarlığın müxtəlif sahələrinə yayılması və inkişafı nəticəsində çoxlu gəlir əldə edən mülkədar, digər iri mal-qara sürüləri sahibləri ilbəil öz mal-qaralarının artırılmasında maraqlı idilər. Buna təkan verən amillərdən biri də Rusiyada toxuculuq sənayesini xammala və Şimali Qafqazda və digər ərazilərdə əhalinin ərzaq məhsullarına tələbatının ödənilməsini nəzərə alan hökumətin bu sahənin inkişafına təkan verən bəzi addımlar atması idi. Bunların sırasında yerlərdə baytarlıq məntəqələrinin açılmasını, müxtəlif sərgilərin təşkilini, yeni becərmə üsullarının təbliğ edən məlumat kitabçalarının yayılmasını, təcrübə stansiyalarının açılmasını və s. göstərə bilərik (8, 61).

Bakı və Yelizavetpol quberniyalarında XIX əsrin sonlarından başlayaraq ta 1913-cü ilə qədər saxlanan mal-qaranın sayı bəzi illərdə aşağı düşsə də, məsələn 1899-1900-cü, 1909-1910-cu illərdə, bu cür azalma, əksər qəzalar üzrə o qədər də kəskin, nəzərə çarpacaq dərəcədə olmamışdır. Əslində isə Bakı quberniyasında mal-qaranın sayı bəhs olunan dövrdə 2109439 başdan 2669452 başa, Yelizavetpol quberniyasında isə 1956567-dən 2298529-a qədər çoxalmışdı (10, 187). Bu rəqəmlərin, təxminən, yarıya yaxını, say artımının 2/3 hissəsi isə təbii ki, yeni əmtəə-kapitalist münasibətlərinə daha asan və tez uyğunlaşan iri mülkədar və varlı-qolçomaq təsərrüfatlarının payına düşürdü.

Çox gəlirli sahə olan pambıqçılıq bu dövrdə mülkədar - bəylərlə xırda torpaq sahibləri arasında, kəndli ilə icarədar arasında münasibətlərdə keyfiyyətcə yeni mərhələnin başlanmasına səbəb olmuşdu. Ümumiyyətlə, mülkədar və digər xüsusi mülkiyyətçi kateqoriyasından olan şəxslərin mülklərində pambıq əkinlərinin salınması, bu məqsədlə yüzlərlə desyatin əkin sahəsinin icarəyə verilməsi o dövr üçün tamamilə yeni hadisə idi (9, 160-161). Az vaxtda pambıq plantasiyalarının sahəsinin bəzən 100 dəfələrlə artması, Şimali Azərbaycan sahibkar kəndində icarədarların xüsusi təbəqənin yaranmasını sürətləndirirdi (10, 97; 18, 212-213).

Pambıqçılıq, bir qədər də ipəkçilik, kənd təsərrüfatının elə sahəsi idi ki, burada məhsulun şəxsi tələbat üçün çox cüzi bir hissəsinin ayrılmasından söhbət gedə bilərdi. Hətta mülkədardan icarə olunan pay torpağının bəzən 0,5-1 desyatinində, bəzən də hələ lap az bir hissəsində pambıq əkən sahibkar kəndlilər yalnız bu yolla nəqd pul vəsaiti əldə etmək, onu təsərrüfatın digər sahələrinin inkişafına yönəltmək və bazarla əlaqələri genişlənmək hesabına zəruri məişət malları almaq imkanı əldə edə bilərdilər.

Əmtəə-kapitalist münasibətlərinin inkişafı və genişlənməsində mütərəqqi üsullardan, təkmil kənd təsərrüfatı texnikası və xüsusən də traktorlardan istifadə hallarının da artmasının böyük rolu var idi. Mülkədar təsərrüfatarında maşınların işlədilməsi və bunun get-gedə genişlənməsinin əsas səbəbi məhz kapitalizm idi, əkinçilikdə maşın tətbiqi məhz kapitalist xarakterli idi (15, 239).

1900-1913-cü illərdə təkcə Bakı və Yelizavetpol quberniyalarında pambıq əkini sahələrinin 19 min desyatindən 105 desyatinə qalxması, yəni 5,5 dəfə

artması işində traktorlardan istifadə edilməsinin də müəyyən təsiri var idi. Belə ki, 1913-cü ildə Rusiyada əkinçilikdə istifadə edilən 152 traktordan cəmi 6-sı Şimali Azərbaycanda idi. F.Vəzirovun Hindarx mülkündə 1, Həsən bəy Hüseynovun Yevlaxdakı mülklərində 1 və Ağdamda fəaliyyət göstərən «Qafqaz pambığı» səhmdar cəmiyyətinin təsərrüfatlarında 2 traktor var idi (3, 26).

Pambıq əkini sahələrinin genişləndirilməsi baxımından Şimali Azərbaycan mülkədarlarının bir çoxu daha irəlidə idi. Onlar öz təsərrüfatlarında mütərəqqi üsul, qurğu və suvarma nasoslarından belə istifadə edərək daha çox gəlir əldə edə bilirdilər (1, 52). İsrafil bəy Bağırov, Ağa bəy Şamxorski, Lütfəli bəy Zülqədərov və başqaları əvvəlcə 30-50 desyatin əkin sahəsində pambıqçılıq təsərrüfatı yaratmışdılarsa, sonrakı bir neçə il ərzində bu sahələri, təxminən, 40-100 dəfə arası genişləndirməyə nail olmuşdular. Yelizavetpol qəzasının Dəllər kəndində iri torpaq sahibi Lütfəli bəy Zülqədərovun mülkündə 1903-cü ildə cəmi 50 desytatin sahədə pambıq əkilmişdisə, 1912-ci ildə bu rəqəm 2 min desyatinə çatmışdı.

Biz bir qədər əvvəl H.Z.Tağıyevin pambıqçılıq sahəsindəki fəaliyyətindən qısaca bəhs etmişdik. İndi onun ardınca Şimali Azərbaycanda daha bir qrup sənayeçi, kapitalist, tacirlər və başqa torpaq sahələri satın alaraq və ya əkin sahələrini icarəyə götürərək orada pambıqçılıq təsərrüfatları təşkil etmişdilər. 1903-1913-cü illərdə Şimali Azərbaycan kəndində pambıq əkin sahələrinin, demək olar ki, bütün bölgələrdə artdığı müşahidə edilirdi. 1913-cü il məlumatına görə Yelizavetpol quberniyasında 61700 desyatin, Bakı quberniyasında isə 35300 desyatin pambıq əkin sahələri olmuşdur (8, 126).

Şimali Azərbaycanın sahibkar kəndində ilk kredit təşkilatlarının yaranması XX əsrin əvvəllərində sahibkar kəndi üçün yeni hadisələrdən biri idi və onlar pambıqçılıq təsərrüfatlarında becərmə üsullarının, istehsal texnikasının yaxşılaşmasına, hətta pambıqtəmizləmə zavodlarının açılmasına şərait yaradaraq kənd təsərrüfatı istehsalının bu sahəsinin əmtəə-kapitalist münasibətlərinə daha tez uyğunlaşmasını göstərən və onu sürətləndirən amilə çevrilirdi.

İlk kredit təşkilatları Bakı quberniyasında 1908-ci, Yelizavetpol quberniyasında isə 1909-cu ildə yaranmışdı (2, 309). Cəmisi 4-5 il ərzində onların sayı 129-a çatmışdı (3, 24). İlk belə kredit təşkilatları məhz Qazax, Şamaxı və Göyçay qəzalarında açılmışdı. Həm bu, həm də sonrakı illərdə açılmış belə kredit təşkilatlarının 25 nəfərdən 2000 nəfərə qədər üzvü olurdu(20, 78).

Lakin bütövlükdə götürdükdə kredit təşkilatlarının mülkədar, varlı-qolçomaq və digər sahibkar kəndli təsərrüfatlarını əhatə etmə dairəsi eyni deyildi və pambıqçılıqla məşğul olunan qəzaların bir çoxunda belə təşkilatların fəaliyyətinə rast gəlinmirdi. Eyni zamanda, belə kredit təşkilatlarının xidmətindən qismən mülkədarlar, əsasən də varlı-qolçomaq kəndlilər istifadə edə bilirdilər (6, 76-77).

XIX əsrin sonlarında əkin sahələri ilbəil genişlənən texniki bitki növlərindən biri də tütünçülük idi. Bu bitki Şimali Azərbaycanda əksər qəzalarda sahibkar kəndlərində becərilirdisə də, uzun müddət bu, şəxsi tələbatın ödənil-

məsinə xidmət etmiş və əmtəəlik məhsul xarakterində olmamışdu. Yeganə istisna Yelizavetpol quberniyasındakı bəzi ərazilər (Nuxa qəzası, xüsusilə Zaqatala dairəsi idi (10, 99). Nəzərə alsaq ki, 1 desyatin tütün plantasiyasından alınan xalis gəlir 140-200 rubl arasında dəyişirdi (tütünün növündən asılı olaraq), onda bu sahənin əmtəə-kapitalist münasibətlərinin inkişafında nə dərəcədə mühüm rol oynaması aydınlaşır (10, 99).

Bəzi qaynaqların və tədqiqatların məlumatlarına görə XIX əsrin sonunda Şimali Azərbaycanda 1100, 1914-cü ildə isə 2200-dən çox kənddə ipəkçiliklə məşğul olurdular (4, 16). Bu kəndlərin, təxminən, yarıya yaxın hissəsinin aid olduğu Şimali Azərbaycan sahibkar kəndində kənd təsərrüfatının bu sahəsində də istehsal əmtəə xarakteri daşımış və burada əmtəəlik məhsul istehsalı özünün ən yüksək inkişaf pilləsinə qalxmışdı. Bu cəhətdən Nuxa və Şamaxı qəzaları daha irəlidə gedirdi. Əgər XIX əsrin sonunda Şimali Azərbaycanda 50-dən çox baramaaçan fabrik fəaliyyətdə idisə, 1915-ci ildə onlar 120-dən çox idi (21, 54).

XX əsrin əvvəllərində sahibkar kəndində təsərrüfatın daha bir gəlirli sahəsi – üzümçülükdə kapitalist münasibətlərinin inkişafı göz qabağında idi. Neft sənayesinin inkişaf etdiyi, yeni neft quyularının istifadəyə verildiyi Bakı quberniyasında üzüm sahələri azalsa da, Yelizavetpol quberniyasında artmış, 1913-cü ildə üzüm istehsalı əvvəlki 15 illə müqayisədə, 2 dəfə çoxalmışdı (11, 93).

Yelizavetpol quberniyasının, demək olar, əksər qəzalarında sahibkar kəndlərində üzümçülüklə məşğul olunsa da, təsərrüfatın bu sahəsi Yelizavetpol və Şuşa qəzalarında daha çox inkişaf etmişdi. Bu iki qəzada XX əsrin ilk illərində toplanılmış üzüm məhsulunun ümumi miqdarı 1,2 milyon puda bərabər idi. Bu rəqəmin, təxminən, yarıya qədəri sahibkar kəndlərin və təsərrüfatların payına düşürdü (11, 93-94). Müqayisə üçün deyək ki, quberniyanın qalan 6 qəzasında toplanılmış üzüm məhsulu qalan iki qəzada istehsal olunanın yarısından az idi.

Yelizavetpol qəzasında üzümçülük təsərrüfatının daha çox inkişaf etməsi səbəblərinə gəldikdə isə bu, ilk növbədə burada Forer qardaşları, Hummel və digərlərinin böyük miqdyasda üzümlük sahələri satın alıb, onların becərilməsində qabaqcıl aqrotexniki qaydalardan, hətta aqronomların xidmətinindən, bitkilərin müalicə üsullarından və digər vasitələrdən istifadə etməsi idi (13, 6).

1911-ci ildə Şimali Azərbaycandakı müxtəlif qəzalarda, təxminən 53,4 min üzümçülük təsərrüfatı var idi. Bu təsərrüfatlardakı üzüm bağlarının ümumi sahəsi 25 min desyatindən bir qədər çox idi. Həmin vaxt bu sahələr ümumi torpaq fondunun 4-20 %-ni təşkil edirdi. Bu rəqəmin, təxminən 2/3-dən bir qədər azı sahibkar kəndlinin payına düşürdü (17, 126, 128).

Şimali Azərbaycan sahibkar kəndində mülkədar malikanələrindəki irimiqyaslı üzümlük bağları istisna olmaqla, kəndlilərin istifadəsində olan belə bağların sahəsi son dərəcə qeyri-bərabər idi. M.Ə.İsmayılovun hesablamalarına görə sahibkar kəndlilərinin, təqribən, 12 mindən bir qədər çox olan üzümçülük təsərrüfatlarının 82 %-dən çoxunun üzüm plantasiyaları 0,2-1 desyatin arasında dəyişirdi. Sahibkar kəndində ayrı-ayrı qəzalar üzrə cəmi 500-dən çox üzüm-

çülük təsərrüfatının 2-7 desyatin (16,8 %), yalnız 0,15 %-nin (21-22 təsərrüfat) 10-43 desyatin arası olmuşdu (21, 146). Sonrakı illərdə bu rəqəmlərdə müşahidə olunan əsas dəyişiklik qonşuların üzümlüklərinin satın alınması hesabına irimiqyaslı üzümlüklərin azalması idi. 1916-cı il Bakı quberniyasında 100 desyatindən çox üzümlük sahəsi olan sahibkarların sayı 50-dən bir az çox idi (14, 11; 21, 148).

XIX əsrin sonu, xüsusilə də XX əsrin əvvəllərində nəinki üzümçülük, eləcə də Şimali Azərbaycan kənd təsərrüfatı istehsalının bütün ənənəvi digər sahələrində istehsalın artması ilə bərabər onun get-gedə daha çox bazarın tələbatına uyğunlaşması, əmtəə-kapitalist münasibətlərinin inkişafının sürətlənməsi, məhsulun əmtəəlik-ticarət hissəsinin daha çox olması əsas diqqət cəlb edən meyllər idi. Sahibkar kəndlilərinin 1913-cü ilə qədər kütləvi şəkildə öz torpaqlarını satın ala bilməməsi, yaxud təsərrüfatı yeni üsullarla idarə etmək üçün kifayət qədər vəsaiti olmamaları, habelə mülkədarın bir hissəsinin təsərrüfatçılığın yeni formaları ilə ayaqlaşa bilməməsi və s. bunun səbəbləri idi.

## ƏDƏBİYYAT


1.Авдеев М.Культура хлопка в Азербайджане // Народное хозяйство, 1921, №2-3(11-12), с.52-55
2.Аргутинский-Долгоруков А.М. История сооружения и эксплуатации Закавказской железной дороги за двадцать пять лет ее существования (1871-1896 гг.). Тифлис: Типография МПС. 1896, 282 с.
3.Vəliyev T.T. XX əsr Azərbaycan tarixi.II c.Bakı: Təhsil, 2009, 560 s.
4.Велиев Т.Т. Шелкообрабатывающая промышленность Азербайджана в начале XX века (1900-1917 гг.). Баку: Элм, 1977, 144 с.
5.Гасанов Г.Н. Из истории Североазербайджанской деревни в конце XIX – начале XX вв. Баку: Тахсил, 2007, 224 с.
6.Гугушвили П.В. Аграрные отношения в Закавказье на рубеже XIX-XX вв. Тбилиси: Наука, 1955, 698 с.
7.Əliyev Q.Ə. XIX-XX yüzilliyin başlanğıcında Şimali Azərbaycanda nəqliyyatın inkişafı. Bakı: BDU, 1995, 115 s.
8. Исмаилов М.А. Сельское хозяйство Азербайджана в начале XX века. Баку: Элм, 1960, 261 с.
9.Исмаилов М.А. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX-XX веков. Баку: Элм, 1960, 305 с.
10.Исмаилов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку: Элм. 1982, 165 с.
11.Исмаилов М.А. К вопросу о развитии капиталистических отношений в виноградарстве и винодельческом хозяйстве Азербайджана в конце XIX -начале XX вв.//Известия АН Азербайджанской ССР. СОН. 1956. № 3, с.71-78
12.Исмаилов М.А.Товарное производство и капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX-XX веков. В сборнике «Генезис капитализма в Закавказье». Баку: Элм. 1969, с.42-43
13.Краткий очерк экономии братьев Форер в Елизаветпольской губернии. 1860-1901 гг. Губернское статистическое управление. Тифлис, 1901, 125 с.
14.Зелинский С.П. Виноградарство и виноделие в Шемахинском уезде. Одесса: Типография А.Кравчука. 1896, 176 с.
15.Lenin V.İ. Rusiyada kapitalizmin inkişafı. Əsərlərinin tam külliyyatı. III c., Bakı: BDU, 1974, 638 s.
16.Присоединение Азербайджана к России и его прогрессивные последствия в области

экономики и культуры в XIX-начале XX вв., Баку: Элм, 1955, 295 с
17.Статический сборник России на 1911 г. СПб. 1912 г., т.1. Тифлис: Типография губернского правления. 1898, 224 с.
18.Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX веке. Баку: Элм, 1956, 364 с.
19.Сумбатзаде А.С. К вопросу об оценке исторического значения законодательного акта от 14 мая 1870 г. О, так называемой, «аграрной реформе» в Азербайджане, Армении и части Грузии // Вопросы истории сельского хозяйства, крестьянства и революционного движения в России. М.: АН СССР, 1961, с. 231-241
20.Тимофеев С.Н. Статистика хлопководства в Закавказском крае за 1913 г. Тифлис: Типография Губернского статистического управления. 1915, 101 с.
21.Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX - начале XX веков. Баку: Элм, 2002, 526 с.

## НАПРАВЛЕНИЯ РАЗВИТИИ ТОВАРНО-КАПИТАЛИСТИЧЕСКОГО ПРОИЗВОДСТВА ВО ВЛАДЕЛЬЧЕСКОЙ ДЕРЕВНЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В НАЧАЛЕ XX ВЕКА

**Ф.Э.БАХШАЛИЕВ, Ф.С.ИСМАИЛОВ**

### РЕЗЮМЕ

В рассматриваемый период одна из важных направлений развития товарного производства во владельческой деревне Северного Азербайджана являлось увеличение доли участия помещиков и других собственников в общем количестве сельскохозяйственных товаров. Со временем их хозяйства все больше и больше носили капиталистический характер. Интенсивная обработка пахотных земель с помощью технических оборудований, в том числе железных плуг, зерновых машин и других средсв, ускорили развитие товарно-капиталистических отношений во владельческой деревне Северного Азербайджана. В рассматриваемый период самое главное направления развития товарно-капиталистического производства во владельческой деревне было в том, что в некоторых областях сельского хозяйства товарное производство уже стало носить промышленный характер.

**Ключевые слова:** капиталист, развитие, деревня, Северный

## THE FORMATION OF CAPITALIST RELATIONS IN THE POSSESSORY VILLAGES OF NORTHERN AZERBAIJAN EARLY IN THE XX CENTURY

**F.E.BAKHSHALIYEV, F.S.ISMAYILOV**

### SUMMARY

The article describes all the changes in the formation of capitalist relations in the possessory village of Northern Azerbaijan. It is indicated that not only the landlords and bais, but also their peasants began producing different products on their farms, more and more. Landowners of Northern Azerbaijan gradually lost their former lands, gave their land to rent to different people, and began to conduct their farms themselves under the new capitalist rules. The major feature of commodity-capitalist production in the possessory villages during this period was characterized with the fact that the process of commodity production was gradually gaining an industrial nature.

**Key words:** capitalist, development, village, Northern.